# "İslam mədəniyyətində birgəyaşayış təcrübəsi" mövzusunda III Beynəlxalq Simpozium panellərlə davam edib

**İndoneziyanın Cokyakarta şəhərində Sunan Kalijaga Dövlət İslam Universiteti, Azərbaycan İlahiyyat İnstitutu (Aİİ), Mənəvi Dəyərlərin Təbliği Fondu, Kırıkkale Universiteti İslam elmləri fakültəsi və İslam Ölkələri Tətbiq və Araşdırma Mərkəzinin birgə təşkilatçılığı ilə "İslam mədəniyyətində birgəyaşayış təcrübəsi" mövzusunda Üçüncü Beynəlxalq Simpozium keçirilir.**






Simpoziuma evsahibliyi edən Sunan Kalijaga Dövlət İslam Universiteti Ədəb və mədəniyyət elmləri fakültəsinin dekanı, professor Məhəmməd Vildan açılış nitqi ilə çıxış edərək bildirib ki, müxtəlif mədəni və dini mənsubiyyətə malik olan insanların dinc yanaşı yaşaması beynəlxalq simpoziumun mövzusu kimi seçilib. Məruzəçi bildirib ki, hazırda mövcud olan həyat nizamını və dinc həyat təcrübələrini məhv edən qlobal dözümsüzlük və müharibə çağırışları ilə üzləşirik. Simpoziumun əsas məqsədi - müxtəlif ölkə və mədəniyyətlərdə teoloji əsasları, dini mətnlərin anlaşılmasını və dinc yanaşı yaşama praktikasını əhatə edən strateji məsələlərin müzakirəsidir.

Azərbaycan İlahiyyat İnstitutunun rektoru, dosent Aqil Şirinov simpoziumun plenar iclasında çıxış edərək yarandığı dövrdən etibarən islam dini mənsublarının digər mədəniyyətlərin nailiyyətlərinə qarşı biganə qalmadığını vurğulayıb. Müsəlmanların digər xalqların uğurlarından ən yüksək səviyyədə istifadə etdiklərini, həmçinin bu nailiyyətlərə öz töhfələrini də əlavə edib, böyük bir sivilizasiya yaratdıqlarını diqqətə çatdırıb.

Aİİ rektoru işğaldan azad olunmuş torpaqlarımızda dini abidələrə qarşı erməni vandallarının törətdikləri cinayətlərə, 67 məscidin tamamilə dağıdıldığına diqqət çəkib. Hazırda Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə bölgədə həmin məscidlərin bərpaolunma işlərinin aparıldığını qeyd edib. A.Şirinov işğaldan azad olunmuş ərazilərdə tarixi-mədəni və dini abidələrin bərpası layihələri çərçivəsində bir neçə ibadət ocağının, artıq yenidən öz görkəminə qayıtdığını vurğulayıb.

A.Şirinov daha sonra erməni vandallarının törətdikləri misilsiz cinayətlərə qarşı Azərbaycan dövləti və xalqının göstərdiyi tolerantlıq nümunəsinə diqqət çəkib. Bakıda hazırda erməni kilsəsinin mövcud olduğunu tədbir iştirakçılarının diqqətinə çatdırıb.

Dünən "İslam mədəniyyətində birgəyaşayış təcrübəsi" mövzusunda Üçüncü Beynəlxalq Simpozium işini panellərlə davam etdirib. Panellərdə Azərbaycan, Türkiyə, İndoneziya, Malayziya, Tailand, Filippin, Banqladeş, Özbəkistan, Misir, Pakistan və digər ölkələrdən 300-dən artıq alimin məruzəsi dinlənilib.

Azərbaycan İlahiyyat İnstitutu İslamşünaslıq kafedrasının müdiri, dosent Əhməd Niyazov "Azərbaycanda XIX əsrdə müsəlman və qeyri-müsəlmanlar arasında birgəyaşama nümunələri; ortaq qəbiristanlıqlar", ali təhsil müəssisəsi Dinşünaslıq kafedrasının müdiri, dosent Anar Qafarov "İslamofobiya bu gün: sosial-siyasi, psixoloji və dini nöqteyi-nəzərdən təhlil", Aİİ rektorunun köməkçisi, AMEA Fəlsəfə və Sosiologiya İnstitutunun Fəlsəfə tarixi şöbəsinin dissertantı Emin Orucov "Hacı Bəktaş Vəlinin birgəyaşayış mədəniyyətinə verdiyi töhfə" mövzularında çıxış ediblər.

***"Azərbaycan"***

Azərbaycan.- 2024.- 31 may, № 113.- S.16.